Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının yaranmasının 50 illiyinə həsr edilmişdir**

# Tolerantlıq

**Respublika Uşaq Kitabxanaları üçün tövsiyə biblioqrafiyası**

**Bakı – 2015**

Tərtibçi: **Nazilə Tahirova**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**Uşaq hüquqları:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2015.- 32s

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2015**

# Tərtibçidən

Tolerantlıq Azərbaycan xalqının xarakterik cəhətidir. Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. Azərbaycan müstəqilliyini əldə edəndən sonra dövlətin ideologiyasında da əsrlərdən gələn ənənə möhkəmləndirilib.Fərqli mədəniyyət və din sahiblərinin birgə yaşayışının dövlət səviyyəsində rəsmi təsdiqi var və bu Konstitusiyamızda da təsbit olunub. Yaradılan mühit onu göstərir ki, Azərbaycan bütün Cənubi Qafqazda tolerantlıq nümunəsidir. Burada fərqli mədəniyyətlərin, dinlərin birgə yaşayışının xüsusi modeli bərqərar olub.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi ilk dəfə olaraq kitabxananın 50 illik yubileyi münasibəti ilə tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə ulu öndər Heydər Əliyev, Prezident İlham Əliyev cənablarının və bir sıra görkəmli şəxsiyyətlərin tolerantlıq haqqında fikirləri və mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar Azərbaycan və rus dillərində öz əksini tapmışdır.

Göstərici xronoloji prinsip əsasında hazırlanmış hər ilin daxilində əlifba ardıcıllığına riayət edilmişdir.

Nəşrlə bağlı arzu və rəylərini bildirəcək hər bir mütəxəssisə və oxucuya əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç. 88;
**E-mail:** childlibbaku@yahoo.com



***

Məlumdur ki, yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaq lazımdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsillənməsində müasir elmi pedaqoji konfranslar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır, lakin gercəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir.

**Heydər Əliyev,**
*ümummilli lider*

Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin nümayəndələri, bütün millətlər bir ailə kimi sülh, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Bu bizim böyük sərvətimizdir, böyük üstünlüyümüzdür və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafında bu amil də öz rolunu oynamışdır. Çox şadam ki, müstəqillik dövründə bu müsbət meylləri biz nəinki qoruyub saxlaya bilmişik, hesab edirəm ki, onları daha da gücləndirmişik.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Yüz illiklərdir Azərbaycanda azsaylı xalqlar bütün proseslərdə bərabər hüquqlarla iştirak edirlər. Onlar üçün heç bir ayrı-seçkiliyə yol vermədən bərabər imkanlar yaradılıb. Ombudsman təsisatının fəaliyyət göstərdiyi illər ərzində bir dəfə də olsun milli zəmində şikayət almamışam.

**Elmira Süleymanova,**
*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvvəkili(Ombudsman)*

Azərbaycan gerçəkliyini, tolerantlığını hər bir azərbaycanlı ilə təmasda hiss etmək mümkündür. Hansı millətə mənsub olmasından asılı olmayaraq, Azərbaycanda yaşayan insan ilk növbədə Azərbaycan vətəndaşıdır.

**Əbülfəs Qarayev,**
*Mədəniyyət və Turizm naziri*

Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən müxtəlif dinlərə mənsub olan insanlar arasında bir-birinə qarşı tolerant yanaşma mövcuddur.

**Elşad İskəndərov,**
*Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri*

Tolerantlığın bir dövlət strategiyası olaraq əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuş və bu zəngin ənənə hazırda İlham Əliyev həzrətləti tərəfindən böyük ləyaqətlə davam etdirilir. Ölkəmizdə demokratik-hüquqi prinsiplərin, din və vicdan azadlığının ardıcıl həyata keçirilməsinin təminatçısı olan möhtərəm dövlət başçımızın qayğı və diqqəti sayəsində dini baxışından asılı olmayaraq bütün vətəndaşlara bərabər münasibət bəslənilir, ayrı-seçkiliyə yol verilmir, insanlara dini ayinləri sərbəst yerinə yetirmək üçün şərait yaradılır. Məhz Azərbaycanda dini sahəyə münasibətdə yürüdülən müdrik siyasətin nəticəsidir ki, dünya

ictimaiyyəti, o cümlədən nüfuzlu beynəlxalq təşkilatlar, habelə dünya miqyasında tanınmış dini liderlər ölkəmizin sülhpərvərliyini, tolerantlığını, başqa dinlərlə dialoqa hazırlıq ruhunu etiraf edir, bunu yüksək dəyər kimi qiymətləndirirlər.

**Allahşükür Paşazadə,**
*bütün Qafqazın şeyxi*

Təsadüfi deyil ki, bu gün Azərbaycanda məscidlərlə yanaşı sinaqoqlar, kilsələr də fəaliyyət göstərir. Müxtəlif dini icmaların fəaliyyəti azaddır. Dövlətin ayırdığı vəsait hesabına çoxsaylı kilsələr bərpa olunub.

**Hacı Mirəziz Seyidzadə,**
*Qafqaz Müsəlmanları İdarəsinin şöbə müdiri*

Tolerantlıq Azərbaycan xalqının xarakterik cəhətidir: "Azərbaycan müstəqiliyini əldə edəndən sonra dövlətin ideologiyasında da əsrlərdən gələn ənənə möhkəmləndirilib. Bir yerdə yaşamaq, fərqli mədəniyyət və din sahiblərinin birgə yaşayışının dövlət səviyyəsində rəsmi təsdiqi var və bu Konstitusiyamızda da təsbit olunub. Yaradılan mühit onu göstərir ki, Azərbaycan bütün Cənubi Qafqazda tolerantlıq nümunəsidir. Burada fərqli mədəniyyətlərin, dinlərin birgə yaşayışının xüsusi modeli bərqərar olub."

**Füzuli Qurbanov,**
*fəlsəfə doktoru*

## Azərbaycanda dini tolerantlığın formalaşması

Tolerantlıq latınca “tolerare” kökündən törəyib : “dözmək, səbir etmək, tab gətirmək, göz yummaq, icazə vermək, fikir verməmək, yaxşı qarşılamaq” mənalarını verir. Tolerantlıq türk dilində “xoşgörü”, ərəb dilində “musamihə” terminləri ilə paralellik təşkil edir. Tolerantlığın xor baxmaq və qadağan etməkdən başqalarının inanc və düşüncələrinə hörmət etməyə qədər müxtəlif mənaları mövcuddur.

Tolerantlıq sivil dünyanın demokratik dəyərlər uğrunda mübarizə salnaməsində xüsusi yer tutur. Hələ qədim zamanlardan insanlarda bir-birinin fərqli baxışlarına, fikir və düşüncələrinə dözümlü yanaşma mədəniyyəti formalaşmağa başlamış, zaman keçdikcə tolerantlıq hər bir cəmiyyətdə sivil harmoniyanın, sülh və barışın təmin olunmasında həlledici amilə çevrilmişdir.

1995-ci il noyabrın 16-da keçirilmiş YUNESKO Baş Konfransının 28-ci sessiyasında Tolerantlıq prinsiplərinə dair bəyannamə qəbul olundu. Bu bəyannamədə vurğulanır ki, “dözümlülük, ilk növbədə insan azadlıqları və universal hüquqların etirafı əsasında formalaşan fəal münasibətdir”, bununla yanaşı “dözümlülük, insan hüquqlarına dair beynəlxalq hüquq aktlarında müəyyən olunmuş normaları iddia edən, həqiqətin mütləqləşdirilməsindən və ehkamçılıqdan imtina edən bir anlayışdır”.

Azərbaycan tarixən dinlərarası münasibətlərin inkişafında mühüm rol oynamışdır. Ölkəmizdə həmişə milli dözümlülük, dini tolerantlıq çox yüksək səviyyədə olmuşdur. Tarixən formalaşmış bu siyasət müstəqillik dövründə də uğurla davam etdirilir.

Azərbaycan müxtəlif etnik və dini qrupların mehriban şəraitdə yaşadığı çoxmillətli ölkədir. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Konstitusiyası mənşəyindən ,vədilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörməti təmin edir. Milli azlıqların cəmiyyətin həyatında, eləcə də ölkə səviyyəsində keçirilən birgə tədbirlərdə fəal iştirakları Azərbaycanda mövcud olan qarşılıqlı hörmətin əyani göstəricisidir. Ölkəmiz müstəqillik

əldə etdikdən sonra 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıb. Heydər Əliyev milli azlıqların nümayəndələri ilə keçirdiyi ənənəvi görüşlərinin birində deyib: ***"Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirirsə , bir o qədər də zəngin olar.."***

Azərbaycan Respublikasının otuz ildən artıq bir mərhələsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, cəmiyyətin bütün sahələrində olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində, dini-mənəvi dəyərlərinin qorunmasında, dini tolerantlığın möhkəmləndirilməsində müstəsna xidmətlər göstərmiş və bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsini miras qoymuşdur.

Azərbaycan xalqının dini cəhətdən tolerant olduğunu respublikamıza səfərə gələn tanınmış dünya dini liderləri də qəbul edirlər. Belə ki, 2010-cu il 26-27 aprel tarixində Bakıda keçirilən Dünya dini liderlərinin sammitinin iştirakçıları bir daha bunun şahidi olmuşlar. Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşərkən ona müraciət edərək ölkəmizdə dinlərarası münasibətlərin yaxşı olduğunu və bu işdə İlham Əliyevin rolunu xüsusi vurğulayaraq demişdir: ***"Mən dinlərarası münasibətlərdə sizin rolunuzu xüsusi vurğulamaq istərdim, Azərbaycan dövlətində insanların əksəriyyəti İslam dininə etiqad edir.Lakin burada pravoslav və yəhudi icmaları da ənənəvi olaraq mövcuddur və Azərbaycanda heç vaxt dinlərarası münaqişələr olmamışdır. Müasir terminologiyadan istifadə etsək, bu gün tolerantlığın yüksək səviyyədə olduğunu deyərdik."***

Azərbaycanda dini tolerantlığın formalaşmasında Heydər Əliyevin xidmətini dəyərləndirən ümumgürcüstan patriarxı II İlya Azərbaycanda mövcud olan dini tolerantlıqdan, ulu öndərin və onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədəki fəaliyyətindən bəhs edərkən demişdir:

***"Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əliza oğlu Əliyevin xidməti böyükdür. Azərbaycanın öz ənənəvi dəyərlərini qoruyub saxlamaqla müasir dünyanın çağırışlarına ləyaqətli cavab verə bilməsi şəxsən onun və onun davamçılarının müdrik və uzaqgörən siyasətinin nəticəsidir. "***

Ulu öndər başqa dinlərə qarşı dözümlülük və tolerantlıq münasibətini həmişə öz fəaliyyəti və öz əməli ilə sübut etmişdir. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara həmişə hörmət və ehtiramla yanaşmış, onların bayramlarını təbrik etmiş, adət ənənələrinə qayğı ilə yanaşmışdır. Məsələn, İsa peyğəmbərin mövludu münasibəti ilə Azərbaycandakı pravoslav icmasının bayramını təbrik edən Heydər Əliyev demişdir: ***"Sizi İsa peyğəmbərin Mövlüd bayramı münasibətilə təbrik edirəm! Dünyanın bütün pravoslav xristianları üçün bu işıqlı gündə sizlərə cansağlığı, səadət diləyirəm. Arzu edirəm ki, sizin bütün nəcib niyyətləriniz yerinə yetsin, bütün diləkləriniz başa gəlsin. İnanıram ki, Azərbaycandakı pravoslav icmasının firavanlığı vətənimizin tərəqqisi və çiçəklənməsi, bütün vətəndaşlarımızın xoşbəxt gələcəyi üçün etibarlı zəmin olacaqdır."***

Azərbaycanda müxtəlif dinlərin birliyinin nümunəvi xarakter daşıdığını vurğulayan ulu öndər bu xüsusiyyətləri xalqımızın dini dözümlülüyünü göstərən fakt hesab etmişdir. Heydər Əliyev 1998-ci il mayın 13-də Prezident sarayında ölkənin din xadimləri ilə görüşündə söylədiyi nitqində Azərbaycanda müxtəlif dinlərin birliyinin nümunəviliyini vurğulamış və mövcud tolerantlığı aşağıdakı kimi şərh etmişdir: ***"Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter***

***daşıyır. Bu, əslində Azərbaycanın reallığını, eyni zamanda Azərbaycan xalqının dini dözümlülüyünü göstərir. Azərbaycanda əhalinin əksəriyyətini İslam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq eyni zamanda Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar, müxtəlif millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycanlılar başqa dinlərə münasibətdə həmişə dözümlü olublar və bunu bizə Quran, Həzrəti Məhəmməd vəsiyyət edibdir. Amma ən mühüm odur ki, bu xeyirxah, müqəddəs vəsiyyət yerinə yetirilsin. Azərbaycanlıların bu vəsiyyəti müqəddəs tutması xalqımızın çox mühüm keyfiyyəti, xüsusiyyətidir və biz bununla fəxr edə bilərik.”***

Dini dözümlülüyü, tolerantlığı daima dəstəkləyən Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasını həmişə tövsiyə edirdi. Yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyəsinin vacib məsələ olduğunu vurğulayan Heydər Əliyev eyni zamanda bu işin mürəkkəb və çətin olduğunu da qeyd edirdi. O, gənclərdə tolerantlıq mədəniyyətinin uşaqlıqdan tərbiyə olunmasını diqqətə çəkərək ünsiyyət mədəniyyətinin formalaşdırılması və Azərbaycan gənclərində bu xüsusiyyətlərin tərbiyə edilməsinin vacib şərt olduğunu bizlərə tövsiyə etmişdir.

Ulu öndərin siyasətini ləyaqətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, İslam dininə hörmət və ehtiramın güclənməsi, başqa dinlərə qarşı dözümlülüyün daha da möhkəmləndirilməsi sahəsində xeyli iş görülmüşdür. Qeyd edək ki, Prezident İlham Əliyev İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, məscid və ziyarətgahların, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ilə bağlı bir çox xüsusi sərəncamlar imzalamışdır. Məsələn, son illərdə Bibiheybət, Təzəpir, Əjdərbəy, Nardaran, Mir Mövsüm ağa və digər məscid və ziyarətgahlar əsaslı təmir olunmuş, onların təchizatına diqqət yetirilmişdir. İlham Əliyev dindarların dini-mənəvi ehtiyaclarına həssaslıqla yanaşmış, bütün

dini bayram və mərasimlərdə şəxsən iştirak etmiş, İslam və başqa dinlərə etiqad edən dindarları dini bayram münasibətilə təbrik etmişdir.

Azərbaycanda tolerantlığın möhkəm əsasları olduğunu vurğulayan Prezident İlham Əliyev respublikamızda yaşayan müxtəlif din nümayəndələrinin əmin-amanlıq şəraitində rahat yaşadıqlarını dəfələrlə qeyd etmişdir. Ölkəmizdə müxtəlif dini icmaların dövlət qeydiyyatından keçərək fəaliyyət göstərməsi Azərbaycanda dini tolerantlığın bariz nümunəsi sayıla bilər.

İslamda tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir, müqəddəs "Qurani Kərim"də bununla bağlı bütpərəstlərə xitabən buyrulur: "Sizin öz dininiz var, mənim öz dinim" ("Kafirun" surəsi, 6). Bu ayədən insanların müxtəlif inamda və fikirdə ola biləcəyi və həmin insanlara qarşı münasibətin necə formalaşacağı aydın görünür. İslama görə, tolerantlıq güclü qarşısında dözümlülük nümayiş etdirmək deyildir, əksinə, özündən zəifə, yaxud bərabər olana eyni cür münasibəti bəsləməyi bacarmaqdır.

Prezident İlham Əliyev ölkədə insan Hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırmaq məqsədiilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Hər bir demokratik cəmiyyətdə insan hüquqlarının qorunması və demokratikləşmə bu sahədə fəaliyyət göstərən təsisatların quruculuğuna, aidiyyəti problemlərin həllinə və zorakılığın qarşısının alınmasına yönəlmiş davamlı bir proses kimi dərk edilir. İnsan hüquqlarının müdafiəsi və demokratikləşmə spontan şəklində həyata keçirilən və bu sahədə mövcud standartlar tətbiq olunmayana qədər lazımı səmərə verə bilməz. Milli Fəaliyyət Proqramının "İnsan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri"ndən bəhs edən dördüncü fəslin 4.11-ci maddəsində insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin

qarşısının alınması, mədəniyətlər və dinlərarası dialoqun uğurlarının təminatında tolerant münasibətin rolu xüsusi vurğulanır.

Azərbaycan Prezidenti İlham Əliyev ilk gündən azsaylı xalqlara, milli-dini azlıqların nümayəndələrinə həssaslıqla yanaşır, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirir. Dövlət başçısı respublikamızda bütün milli və dini azlıqların birgə yaşayışı üçün kifayət qədər tolerant mühitin olduğunu məmnunluqla bildirir.

Tolerantlıqla bağlı qərb ölkələrinə nümunə ola biləcək Azərbaycanda möhtəşəm şəkildə təşkil olunmuş İkinci Beynəlxalq Humanitar Forum keçirilmişdi. Milli, irqi, dini dözümlülüklə bağlı dünyaya mesajı özündə ehtiva edən həmin forumun açılış mərasimində ölkə Prezidenti cənab İlham Əliyev bildirmişdi: "Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu bir diyar olmuşdur. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir. Mən əminəm ki, bu meyillər gələcəkdə daha da gücləndiriləcək və Azərbaycan uğurla inkişafına davam edəcəkdir."

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə ötən il Böyük Britaniya parlamentində "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda tədbir keçirilib. Azərbaycandakı tolerantlıq mühitinin başqa ölkələrə nümunə kimi dəyərləndirilən tədbirdən məlum olur ki, Avropa ölkəmizin bu müsbət təcrübəsini öyrənməkdə maraqlıdır.

Həmçinin bu günlərdə Fransanın Bordo şəhərində Azərbaycanda dini tolerantlıq mövzusunda tədbir keçirilib. Azərbaycanda tolerantlığın nümunəvi səviyyəyə çatdığı vurğulanan tədbirdə iştirak edən Fransanın "Fəxri legionordeni mükafatçısı müfti Tareq Ubru Jirond, Müsəlman Federasiyasının Baş katibiMüslim Şərafəddin, Fransa Yəhudi icmasının Akitin Şurasının prezidenti Albert Roshe, Fransa Terror Qurbanları Assosasiyasının vitse-

prezidenti Pyer Koneza Azərbaycan hökumətinin həyata keçirdiyi pozitiv sekulyarizim modelinin Fransa və bir sıra başqa Avropa dövlətləri tərəfindən örnək ola biləcəyini qeyd ediblər.”

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil Ombudsman Aparatı uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin təşəbbüsü ilə Bakı Slavyan Universitetinin məktəb-lisey kompleksində 16 noyabr-Beynəlxalq Tolerantlıq Günü münasibətilə ibtidai və orta sinif şagirdləri üçün açıq məşğələlər keçirilmişdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil Ombudsman Aparatının nümayəndəsi Gülnar Rəhimova çıxışında bildirmişdir ki, 16 noyabr 1995-ci il tarixində YUNESKO-ya üzv dövlətlər Tolerantlıq prinsipləri haqqında Bəyannamə qəbul etmişlər. BMT Baş Assambleyasının 1996-cı il qərarına əsasən, quruma üzv ölkələrə hər il bu tarixi Beynəlxalq Tolerantlıq Günü kimi qeyd etmək və bununla əlaqədar təhsil müəssisələrində, eləcə də geniş ictimaiyyət arasında müvafiq tədbirlər keçirmək tövsiyə olunmuşdur. Tolerantlıq prinsipləri haqqında Bəyannamədə deyilir ki, bütün insanlar öz təbiətlərinə görə fərqli olsalar da, dəyər və hüquqlarına görə bərabərdirlər. Bu sənədə görə, dözümlülük dünyada mədəniyyətlərin, özünüifadənin və insan şəxsiyyətinin təzahürünün müxtəlifliyinin başa düşülməsi, qəbul edilməsi və buna hörmət göstərilməsidir. Tolerantlıq hər bir insana heç bir diskriminasiya olmadan iqtisadi və sosial inkişaf imkanı yaradılmasını tələb edir.

Azərbaycanın indi bütün dünyada həm də yüksək tolerantlıq örnəyi kimi tanındığı diqqətə çatdırılmış, Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlərin ölkəmizi müxtəlif milli və mədəni dəyərlərin qovuşduğu məkana çevirdiyi vurğulanmışdır.

Qeyd olunmuşdur ki, Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Həmin siyasətin hazırda

Prezident İlham Əliyev tərəfindən davam etdirildiyi nəzərə çatdırılmışdır.

Aparatın təmsilçisi Ombudsman Elmira Süleymanovanın fəaliyyətində uşaq hüquqlarının müdafiəsinin də mühüm yer tutduğunu vurğulamış, Müvəkkilin bu istiqamətdə həyata keçirdiyi tədbirləri diqqətə çatdırmışdır. Avropa Şurasının Uşaqların cinsi istismar və sui-istifadədən müdafiəsinə dair Konvensiyasının ölkəmiz tərəfindən imzalandığını nəzərə alaraq, Müvəkkilin bu Konvensiyanın Milli Məclis tərəfindən ratifikasiya edilməsini, həmçinin "Uşaqların cismani cəzadan müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunmasını təklif etdiyi diqqətə çatdırılmışdır.

Bakı Slavyan Universitetinin məktəb-lisey kompleksinin direktoru İlahə Carçıyeva yüksək tolerantlıq nümunəsi olan ölkəmizdə bütün milli azlıqların, etnik qrupların təmsilçisi olan uşaqlar üçün də heç bir ayrı-seçkiliyə yol verilmədən ahəngdar inkişaf imkanlarının yaradıldığını bildirmişdir.

Qeyd edilmişdir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır, çoxmillətli ölkəmizdə, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışı təmin edilmişdir.

Göründüyü kimi, son illər dünyanın dinlərarası və mədəniyyətlərarası dialoq mərkəzinə çevrilən Azərbaycanda hər bir xalqa və dinə bərabər yanaşma mövcuddur. Təbii ki, ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinə yaradılan tolerant mühitin təməlində xalqımızın qonaqpərvərliyi, səmimiliyi və bir də bərabər hüquq və humanizmi özündə əks etdirən təkmil qanunvericilik dayanır.

# Ədəbiyyat


**1991**

**1. Əhədov, A.** Azərbaycanda din və dini təsisatlar /Abdulla Əhədov; elmi red. İzzət Rüstəmov.- Bakı: Azərnəşr, 1991.- 200 s.

Kitabda mötəbər mənbələr əsasında qədim, inqilabaqədərki və müasir Azərbaycanda xristian dini, onun təriqətləri tədqiq və şərh edilir. İslama, onun məzhəblərinə və təriqətlərinə, əsas ayin mərasimlərinə geniş yer verilir.

**1998**

**2. Dinlərarası mədəni və incə davranışın "əlifbası"**/red.: Ə.Abbasov; Dinlərin Görüş Mərkəzi, "İnam" Plyuralizm Mərkəzi.- Bakı, 1998.- 32 s.

Broşur Azərbaycanda ayrı-ayrı dindən olan insanlara tolerantlıq (dözümlülük) mədəniyyətini aşılamaq məsələsinə həsr olunub.

**3. Dünya dinləri bəşəri zənginlik kimi** /red.: N.Mehdi; Dinlərin Görüş Mərkəzi; "İnam" Plyuralizm Mərkəzi.- Bakı, 1998.- 31 s.

Broşur Azərbaycanda ayrı-ayrı dindən olan insanlara tolerantlıq mədəniyyətini aşılamaq məsələsinə həsr olunub.

**2004**

**4. Cəfərov, A.** Bəhai dini Azərbaycanda /Azər Cəfərov; elmi red. Cəlal Zahidi.- Bakı: Təhsil NPM, 2004.- 80 s.

Kitabda Bəhai dini təliminin əsas prinsipi - Bəşəri Birliyin tarixi zəruliliyi və indiki sivilizasiyanın bu birlik vasitəsi ilə İlahi Sivilizasiyaya tədricən keçməsi ilə bağli baxışlar araşdırılır.

**5. Yunusov, A** Azərbaycanda islam /Arif Yunusov; red. Rauf Hüseynov; tərc. M.Mütəllimov.- Bakı: Zaman, 2004.- 364 s.

Müəllif tərəfindən çoxillik səyyar araşdırmalar, KİV-lərin monitorinqi və sosioloji sorğu əsasında hazırlanmış monoqrafiya-da ilk dəfə olaraq qədim zamanlardan indiki dövrə qədər Azər-

baycanda islamın tarixinə baxılmışdır. İslamaqədərki dövrdə ölkədəki dini vəziyyətin mənzərəsi, habelə Azərbaycanda islamın inkişafının bütün mərhələləri verilmişdir. Kitabda statistik məlumatlar verilmişdir.

## 2007

**6. Dinlər arası dialoq:** Qazaxıstanın təcrübəsinə müasir dünyamızda tələbat var /red. Eldar Günaydın; tərc. İsmayıl Umudlu.- Bakı: Apostrof, 2007.- 15 s.

Kitabda Qazaxıstanın dini və müasir dünyada onun təcrübəsinə tələbat əks olunmuşdur.

**7. Heydər Əliyev və Azərbaycanda din siyasəti: "Gerçəkliklər və perspektivlər"** /Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi; H.Orucovun ümumi redaktəsi ilə; tərt. G.İsmayılov; red. S.Nəzərli; rəssam. A.Hüseynov.- Bakı: Əbilov, Zeynalov və oğulları, 2007.- 399 s.

## 2008

**8. İskəndərli, C.** Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər /Cabir İskəndərli.- Bakı: [s.n.], 2008.- 95, [1] s.

Kitabda Azərbaycanda fəaliyyət göstərən qeyri-ənənəvi dinlər və təriqətlər, eləcə də dini cərəyanlar barədə məlumatlar öz əksini tapmışdır.

## 2009

**9. İlham Əliyevin 5 illik prezidentlik fəaliyyəti və Azərbaycanda vətəndaş cəmiyyəti:** sosioloji tədqiqat noyabr-dekabr, 2008 /Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası; red. C.Cabbarlı; layih. rəhb. E.Süleymanov.- Bakı: AVCİYA, 2009.- 188, [4] s.

Kitabda ailələrin sosial rifah halı və gəlirlərin səviyyəsi, daxili siyasət, xarici siyasət, söz və mətbuat azadlığı, Dağlıq Qarabağ, milli və dini tolerantlıq və s. mövzular verilmişdir.

**10. Səmədov, E.** Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması: [monoqrafiya] /Elsevər Səmədov; AMEA, Fəlsəfə, Sosiologiya və Hüquq İn-tu.- Bakı: [s.n.], 2009.- 169, [1] s.

Kitabda müəllif Azərbaycanda din və dövlət münasibətləri, buna paralel olaraq da dini təhsilin bugünkü vəziyyətini göstərməyə çalışmışdır.

**2011**

**11. Azərbaycan – Tolerantlıq Məkanı** [İzomaterial]: [fotoalbom].- Bakı: [s.n.], 2011.- 395, [4] s.

Kitabda Azərbaycan ərazisində olan dini abidələr - məscidlər, ziyarətgahlar, xristian və iudaizm məbədləri haqqında qısa məlumat verilmişdir.

**12. İsgəndərli, C.** Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər /Cabir İskəndərli.- Bakı: Apostroff MMC, 2011.- 110s.

Kitabda Azərbaycanda fəaliyyət göstərən qeyri-ənənəvi din və təriqətlər, eləcə də cərəyanlar barədə məlumatlar öz əksini tapmışdır. Burada vəhabilik, xaricilik, nurçuluq, süleymançılıq, qadirlik, nəqşibəndilik kimi islami, eləcədə ənənəvi olmayan qeyri-islam dini icmalar, o cümlədən, "Yehovanın şahidləri", adventizm, baptizm və digər bu kimi təriqət və dinlər barədə əsaslı araşdırma aparılmış, onların tarixi, ehkamı və zərərli tərəfləri haqqında geniş məlumat verilmişdir.

**2012**

**13. Hüseynov, S.** Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik /Sakit Hüseynov; elmi red. A.Əlizadə.- Bakı: Təknur, 2012.-175, [1] s.: portr., cədv., 21 sm.

Monoqrafiyada Azərbaycanda tarixən dini tolerantlıq mədəniyyətinin formalaşması araşdırılmış, İslam dinin Qafqazda, o cümlədən Azərbaycanda yayılması, həm İslam dinin özünün tarixən tolerant din olması, həm də Azərbaycanda dini tolerantlı-

ğın formalaşması və mövcud vəziyyəti faktlar əsasında tədqiq edilmişdir

**14. II İoann Pavel Azərbaycanda** /ön söz. V.Fekete.- Bakı: [s. n.].- 2012.- 104 s.

Vatikan dövlətinin başçısı, Roma Papası II İoann Pavel ilə Bakıda görüşün iştirakçılarının bu görkəmli insanla bağlı xatirələrini canlandırmaları üçün kitabda onun Respublika Prezidentinin səsləndirdikləri nitqlərindən bir neçə əsas fikiri üç dildə - azərbaycan, rus və ingilis dillərində təqdim edilmişdir.

**15. Orucov, H.** Azərbaycanda din: ən qədim dövrdən bu günədək /Hidayət Orucov; red. G.İsmayılov, C.Bəhramov, E.Cabbarov; rəssam A.Hüseynov.- Bakı: İdrak İB, 2012.- 384, [1] s.

Monoqrafiya dinlərin zaman-zaman formalaşdığı qədim, yeni və ən yeni dövrləri əhatə edir. Əsərdə dövlət-din münasibətlərinin ayrı-ayrı ictimai-siyasi formasiyalar sistemində özünəməxsus keyfiyyətlər qazanaraq, böyük intibah dövrü keçməsi, onun müstəqil Azərbaycan Respublikasının timsalında yaranmış tarixi xronologiyası mükəmməl şəkildə təqdim olunur.

## 2013

**16. Əyyubov, S**. Bəhai Dini Azərbaycanda və ya bütün dinlərdə Vəd Olunmuş Kəsin zühuru /Səlahəddin Əyyubov.- Bakı: Ekspress, 2013.- 245 s.

Kitabda müəllif Azərbaycanda Bahai tarixi ilə bağlı toplanmış faktları və hadisələri əks etdirməyə çalışmışdır.

## 2014

**17. Həsənli, A.** Müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri: [monoqrafiya] /Anar Həsənli; elmi red. S. Hüseynov; ön söz İ. Rüstəmov.- Bakı: NurArt, 2014.- 143 s.

Monoqrafiyada müasir şəraitdə Azərbaycanda dini-mədəni dəyərlərin inkişaf xüsusiyyətləri, ideya-fəlsəfi paradiqması araşdırılmış, insanların həyat tərzinə dini-mədəni dəyərlərin təsiri,

qloballaşma şəraitində Azərbaycanda dini tolerantlığın vəziyyəti, Azərbaycan gerçəkliyinin dini-mədəni dəyərlər müstəvisində mümkün mənzərəsi təhlil edilmiş, əldə olunmuş nəticələrə əsasən təklif və tövsiyələr verilmişdir.

## Rus dilində

### 2008

**18. Исламские ценности Центральной Азии: толерантность и гуманизм: историко-философские и культурные аспекты:** [материалы Международной научной конференции] /Французский Ин-т Исследований Центральной Азии; Ин-т истории Акад. Наук Респ. Узбекистан; Международный Ин-т Центральноазиатских Исследований; Ташкентский Исламский Ун-т; Представительство ЮНЕСКО в Узбекистане; ред. кол. Д.А.Алимова [и др.].- Ташкент: [б.и.], 2008.- 208 с.

В настоящем сборнике представлены доклады участников Международной научной конференции "Исламские ценности Центральной Азии: толерантность и гуманизм. Историко-философские и культурные аспекты", состоявшейся 26-27 июня 2007 года в Ташкенте. Научные выводы, сделанные участниками конференции, позволяют более объективно, с глубоко продуманных цивилизационных позиций оценить роль исламского фактора в нравственном совершенствавании подрастающего поколения, дальнейшей межконфессиональной и социальной консолидации народов Центральной Азии.

### 2010

**19. Толерантность в культуре и процесс глобализации** /Учреждение Рос. Акад. Наук Ин-т Философии РАН, Акад. Гуманитарных Исслед; кол. авт. Н.И.Киященко и др.- Москва: Гуманитарий, 2010.- 486, [1] с.

В книге рассматриваются новые трактовки идеи толерантности в основных, наиболее значительных областях культуры как философия, искусство, религия, наука, образование.

## Məqalələr

### 2003

**20. Abdullayev, V.** Siyasət və tolerantlıq mədəniyyəti /Vaqif Abdullayev //Yeni Azərbaycan.- 2003.- 5 dekabr.- S.7.

### 2007

**21. "Azərbaycan tolerantlıq nümunəsidir"** //Xalq qəzeti.- 2007.- 17 noyabr.- S.4.

**22. "Azərbaycanda olan tolerantlıq bütün dünyada nümunə göstərilir"**//Paritet.-2007.-17-19 noyabr.-S.9

**23. Azərbaycandakı tolerantlıq başqa ölkələr üçün nümunə ola bilər** //Azərbaycan.- 2007.- 6 fevral.- S.5.

**24. Bakıda Heydər Əliyev və Azərbaycanda din siyasəti**: gerçəkliklər və perspektivlər mövzusunda beynəlxalq konfrans işinə başlamışdır //Azərbaycan.-2007.- 4 aprel.-S.2.

**25. Bəşirqızı, Z.** "Tolerantlıq mentalitetimizin ayrılmaz cəhətlərindəndir" /Zərifə Bəşirqızı //Xalq qəzeti.- 2007.- 18 yanvar.- S.2.

**26. "Heydər Əliyev və Azərbaycanda din siyasəti:** gerçəkliklər və perspektivlər" mövzusunda beynəlxalq konfransın iştirakçıları BMT, YUNESKO, Avropa Şurası, ATƏT və İslam Konfransı Təşkilatına müraciət qəbul etmişlər //Azərbaycan.- 2007.- 10 aprel.- S.5.

**27. Nərimanqızı, N.** Dünya xalqlarına örnək. 16 noyabr Beynəlxalq tolerantlıq günüdür /N.Nərimanqızı //İki sahil.- 2007.- 20 noyabr.- S.4.

**28. "Tolerantlıq örnəyi Azərbaycan":** Bakıda Beynalxalq Tolerantlıq Günü münasibətilə konfrans keçirilib //Yeni Azərbaycan.- 2007.- 17 noyabr.- S.5.

**29. Vəfa, Z.** Azərbaycan dünya üçün əsl tolerantlıq nümunəsidir. 16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür /Zeynal Vəfa //Azərbaycan.- 2007.- 16 noyabr.- S.7.

**30. Vəfa,Z.** Keçmişə hörmət və məhəbbətlə. Tolerantlıq ölkəmizin əldə etdiyi ən böyük nailiyyətlərdən biridir /Zeynal Vəfa //Azərbaycan.- 2007.- 2 dekabr. - S. 4.

## 2008

**31. Cəfərli, R.** "Tolerant dəyərlərə sadiqlik nümunəsi" /Rəşad Cəfərli //Azərbaycan.- 2008.- 6 aprel.- S.1.

**32. Elmanoğlu, S.** Azərbaycan Prezidenti İlham Əliyevin nitqi: Bakıda Müqəddəs Məryəm Ana Kilsəsinin rəsmi açılışında /Samir Elmanoğlu //Azərbaycan.- 2008.- 8 mart. - S.1

**33. Əliyev, P.** Tolerantlıq tərbiyəsinin mahiyyəti, məzmunu və həyata keçirilməsi yolları /P.Əliyev //Azərbaycan.- 2008.- №12.- S.15-22.

**34. Hacıalıyev, E.** Azərbaycan tolerantlığı ilə dünyaya nümunədir /E.Hacıalıyev //Azərbaycan.-2008.-16 avqust.-S.1.

**35. Həmidov, H.** Azərbaycanda dini tolerantlıq /Habil Həmidov //Azərbaycan.- 2008.- 27 noyabr.- S.4.

**36. Los-Anceles Tolerantlıq Mərkəzinin rəhbəri ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri qətiyyətlə pisləmişdir** //Azərbaycan.- 2008.- 24 iyul.- S.3.

**37. Rzalı, R.** Tolerantlıq örnəyi – Azərbaycan: 16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür /R.Rzalı //Azərbaycan.- 2008.- 16 oktyabr.- S.5.

## 2009

**38. Cəfərli, R.** Tolerantlığın ən mükəmməl örnəyi olan Azərbaycanda islami dəyərlər mənəvi irsin əsasını təşkil edir /Rəşad Cəfərli //Azərbaycan.- 2009.- 20 sentyabr.- S.1.

**39. Elmanoğlu, S.** Azərbaycandakı dini tolerantlıq inkişaf etmiş ölkələrə də örnəkdir: 16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür /S.Elmanoğlu //Azərbaycan.- 2009.- 15 noyabr.- S.5.

**40. Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıdakı Müqəddəs Məryəm kilsəsində aparılan yenidənqurma işləri başa çatmışdır** //Azərbaycan.- 2009.- 8 iyul.- S.3.

**41. Səbuhi.** Tolerantlıq ənənəsi yaşayır /Səbuhi //Mədəniyyət.- 2009.- 9 may.- S.3.

**2010**

**42. Abbasova, H.** Azərbaycanda müsbət tolerantlıq mövcuddur /Hökumə Abbasova //Paritet.- 2010.- 6-7 noyabr.- S.8.

**43. Azərbaycanda dini və milli tolerantlıq** //Azadlıq.- 2010.- 20 oktyabr.- S.13.

**44. Azərbaycanda yəhudilər özlərini harmoniya və sülh içərisində hiss edirlər** //Azərbaycan .-2010.- 27 aprel. - S.7.

**45. Biz Azərbaycanda yüksək inkişafın şahidi olduq** //Azərbaycan.- 2010.- 27 aprel.- S.7.

**46. Cəliloğlu, V.** Azərbaycanda yəhudilərə münasibət və Məhəmməd (ə) peyğəmbərin bir müqaviləsi... /Vaqif Cəliloğlu //Bakı xəbər.- 2010.- 1 noyabr.- S.15.

**47. Həsənoğlu, C.** Azərbaycanda tolerantlıq /C.Həsənoğlu //Paritet.- 2010.- 14-15 sentyabr.- S.1;4.

**48. Hüseynzadə, F.** Azərbaycanda heç vaxt antisemitizm olmayıb /Fuad Hüseynzadə //Paritet .-2010.- 5-6 oktyabr.- S.11.

**49. İbrahimoğlu, Q.** Tolerantlıq nümunəsi – Azərbaycan /Q.İbrahimoğlu //Ekspress.- 2010.- 24 iyun.- S.8.

**50. İsmayılqızı, X.** Tolerantlıq Azərbaycanın milli mənəvi dəyəridir /Xuraman İsmayılqızı //İki sahil.- 2010.- 4 may.- S.2.

**51. 16 noyabr - Beynəlxalq Tolerantlıq günüdür** //Paritet.- 2010.- 13-19 noyabr.- S.9.

**52. Sadıqoğlu, A.** Tolerantlığın Azərbaycan modeli haqqında düşüncələr /Afət Sadıqoğlu //Respublika.- 2010.- 30 noyabr.- S.6.

**53. Tolerantlıq inteqrasiya və qloballaşmanın vacib şərtidir** //Bakı xəbər.- 2010.- 11 noyabr.- S. 12.

**54. “Tolerantlıq prinsipləri” Deklarasiyası** //Bakı xəbər.- 2010.- 13 sentyabr.- S. 12.

**2011**

**55. Azərbaycanda dini tolerantlıq çox yüksək səviyyədədir //**Azərbaycan.-2011.- 12 yanvar. - S. 2.

**56. Azərbaycanda dini dözümlülük və tolerantlıq yüksək qiymətləndirilmişdir** //Azərbaycan.-2011.- 15 mart.- S.4.

**57. Akkan Suver:** "Dünyanı sülh, əməkdaşlıq və tolerantlıq xilas edəcək" //Xalq qəzeti.- 2011.- 26 yanvar.- S. 5.

**58. Bəhmən.** Mədəniyyət və tolerantlıq /Bəhmən //Xalq cəbhəsi.- 2011.- 24 may.- S. 10.

**59. Bədəlov, Ə.** Azərbaycanda müxtəlif dini baxışları olan insanlar vahid ailə kimi yaşayırlar / Əliqismət Bədəlov //Xalq qəzeti.- 2011.- 15 yanvar.- S.5.

**60. Bayramlı, N.** Azərbaycan tolerantlıq baxımından digər dövlətlər üçün nümunədir /N.Bayramlı //Yeni Azərbaycan.- 2011.- 12 avqust.- S.4.

**61. Bədəlov, Ə.** Azərbaycandakı dini dəyərlərə ehtiram və tolerantlıq dünya üçün örnəkdir /Əliqismət Bədəlov //Xalq qəzeti.- 2011.- 17 avqust.- S.3.

**62. Əsgərov, Ş.** Tolerantlıq haqda düşüncələr /Şahlar Əsgərov //İki sahil.- 2011.- 16 noyabr.- S. 12.

**63. Cəfərli, R.** "Tolerantlıq insan hüquqlarıyla bağlıdır" /R.Cəfərli //Xalq cəbhəsi.- 2011.- 3 fevral.- S.10.

**64. Cavid.** Novruz-tolerantlıq bayramı /Cavid //Xalq cəbhəsi.- 2011.- 12-14 mart.- S.12.

**65. Cəfərli, R.** Bəşəriyyətin tolerantlıq bayramı /R.Cəfərli //Xalq cəbhəsi.- 2011.- 15 mart.- S. 10.

**66. Cavid.** "Tolerantlıq demokratiyanın əsas elementidir": Mahama Bazarov: "Təkcə Balakəndə 14 xalqın nümayəndəsi yaşayır" /Cavid //Xalq cəbhəsi.-2011.- 18 fevral.- S.10.

**67. Cavid.** "Azərbaycanın tolerantlıq modeli Şimali Qafqaza örnək olmalıdır" /Cavid //Xalq cəbhəsi.- 2011.- 24 fevral.- S.10.

**68. Hacımusalı, O**. Dini və milli tolerantlıq /Oktay Hacımusalı //Xalq cəbhəsi.- 2011.- 25 fevral.- S.11.

**69. Hacımusalı, O.** Dini tolerantlıq /Oktay Hacımusalı //Xalq cəbhəsi.- 2011.- 30 mart.- S.11.

**70. Hacıalıyev, E.** Azərbaycan regionda sülh, tolerantlıq və dialoq mərkəzi kimi tanınır /E.Hacıalıyev//Azərbaycan.- 2011.- 11 sentyabr.- S.1.

**71. Hüseynov, S.** Azərbaycanda dini tolerantlıq mədəniyyəti /Sakit Hüseynov //Respublika.-2011.- 21 may.- S.5.

**72. İsmayılqızı, X.** Tolerantlıq Azərbaycan xalqının və dövlətinin milli mənəvi dəyərlərindəndir /Xuraman.İsmayılqızı //İki sahil.- 2011.- 24 avqust.- S.3.

**73. Kubanın mədəniyyət naziri:** Bakı forumu tolerantlıq mədəniyyətinin inkişafına böyük töhfədir //Azərbaycan.- 2011.- 23 aprel.- S.4.

**74. Mehralı, L.** Tolerantlıq yüksək mədəniyyət nümunəsidir / Lalə Mehralı //Xalq cəbhəsi.-2011.- 19 aprel.- S.10.

**75. Musabəyov, R.** Tolerantlıq nümunəsi olan Azərbaycanın belə bir tədbirə ev sahibliyi etməsi təbiidir /Rasim Musabəyov //Mədəniyyət.- 2011.- 6 aprel.- S.15.

**76. Ömərov, V.** Vətəndaş cəmiyyəti və tolerantlıq /Vahid Ömərov //Səs.- 2011.- 10 sentyabr.- S. 11.

**77. Piriyev, İ.** Ədəbiyyatımızda dini və milli tolerantlıq / İftixar Piriyev //Xalq cəbhəsi.-2011.- 12 aprel.- S.11.

**78. Rəsu**l. Dini tolerantlığın maddiləşmiş sübutu...: Bakıda yeni sinaqoq fəaliyyətə başladı /Rəsul //Xalq cəbhəsi.- 2011.- 6 aprel.- S.6.

**79. Rəsulov, R.** Azərbaycan – tolerantlıq nümunəsi /Rovşən Rəsulov //Səs.- 2011.- 5 avqust.- S. 8.

**2012**

**80. Azərbaycanın tolerantlıq mühiti yüksək qiymətləndirilmişdir** //Azərbaycan.- 2012.- 12 iyun.- S.6.

**81. Azərbaycanda dini tolerantlıq çox yüksək səviyyədədir** //Azərbaycan.-2011.- 12 yanvar. - S.2.

**82. ABŞ-ın nüfuzlu** «CNBC» televiziyasının saytında Azərbaycandakı tolerantlıq haqqında material dərc edilmişdir //Azərbaycan.- 2012.- 13 noyabr.- S.11.

**83. Duraqan Çuroviç:** Azərbaycanın tolerantlıq modeli həqiqətən, fəxr ediləcək bir nümunədir //Azərbaycan.- 2012.- 6 may.- S.5.

**84. Cəfərli, R.** "Tolerantlıq vətəndaş cəmiyyətində birliyin və sülhün təminatçısıdır" /R.Cəfərli //Xalq cəbhəsi.- 2012.- 24 fevral.- S.10.

**85. Hacalıyev.E.** "Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkan olub"/E.Hacalıyev //Azərbaycan.-2012.- 3 noyabr.-S.3.

**86. Kardinal Fernando Filoni:** Azərbaycanda nümunəvi tolerantlıq mühiti mövcuddur //Azərbaycan.-2012.- 12 iyun.- S.6.

**87. Mehparə.** "Azərbaycanda tolerantlıq dövlət siyasəti səviyyəsinə yüksəlib" /Mehparə //Mədəniyyət.- 2012.- 15 avqust.- S.6.

**88. Muradlı, E.** Bakıda dini tolerantlıq müzakirə olundu /Elməddin Muradlı //Üç nöqtə.- 2012.- 20 dekabr.- S.4.

**89. Mustafayeva, A.** Tolerantlıq Azərbaycan xalqının bəşər sivilizasiyasına töhfəsidir /Aytən Mustafayev //Azərbaycan.- 2012.- 7 yanvar.- S.4.

**90. Pakistanın nümayəndə heyəti Azərbaycanın tolerantlıq mühitini yüksək qiymətləndirmişdir** //Azərbaycan.- 2012.- 29 noyabr.- S.5.

**91. Rzalı, R.** Azərbaycan tolerantlığa görə dünyada nümunəvi ölkədir: 16 noyabr Beynəlxalq Tolerantlıq Günü /Rəsmiyyə Rzalı //Azərbaycan.- 2012.- 16 noyabr.- S.11.

**92. Sadayoğlu, P.** Azərbaycan Respublikası dini və milli tolerantlıq nümunəsidir /Pərviz Sadayoğlu //Yeni Azərbaycan.- 2012.- 6 mart.- S.5.

**93. Tahir, R. "**Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər" /R.Tahir //Xalq qəzeti.-2012.- 18 may.- S.8.

**94. Vatikanın nümayəndə heyəti Azərbaycandakı tolerantlıq mühitini yüksək qiymətləndirmişdir** //Azərbaycan.- 2012.- 12 iyun.- S.6.

**2013**

**95. "Azərbaycan - tolerantlıq məkanı"** //Mədəniyyət.- 2013.- 9 oktyabr.- S.2.

**96. "Azərbaycan-tolerantlıq məkanı"**: BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında fotosərgi //Mədəniyyət .-2013.- 2 oktyabr.- S. 6.

**97. Abdullayeva, S.** Azərbaycanda kilsələr: dini dözümlülüyün uzunömürlü şahidləri: /S.Abdullayeva //525-ci qəzet.- 2013.- 11 dekabr.- S.6.

**98. Azərbaycanın tolerantlıq mühiti yüksək qiymətləndirilmişdir** //Azərbaycan.- 2013.- 6 aprel.- S. 11.

**99. Bakıda İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Milli Tolerantlıq Mərkəzinin beynəlxalq təqdimat mərasimi keçirilmişdir** //Azərbaycan.- 2013.- 30,31 may.- S.9.

**100.Eyvazov, A.**"Dini dözümlülüyün Azərbaycan modeli dünyaya nümunədir" /Atif Eyvazov// Həftə içi.-2013.-6 iyul.-S.7.

**101.Əliyev, Z.** Azərbaycanda dini tolerantlıq mühitinin yaranması yolunda son illər çox mühüm addımlar atılıb" /Zaur Əliyev; müsahibə apardı Musa Günel //525-ci qəzet.- 2013- 29 mart; 2,3,4 aprel.- S.6..- S.6.

**102.Əliyeva, L**. Tolerantlıq bizim həyat tərzimizdir... /Leyla Əliyeva; RAGT-nin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti //Azərbaycan qadını.- 2013.- qış.- S.62-63, 82-83.

**103.Əliyeva, Y.** Azərbaycan dünya xəritəsində tolerantlıq mərkəzinə çevrilib /Yeganə Əliyeva //İki sahil.- 2013.- 21 may.- S.3.

**104.Əsgərov, Ş.** "Tolerantlıq Şərqdə, xüsusən də Azərbaycanda mədəni dəyərə, əxlaq normasına çevrilib" /Şahlar Əsgərov; müsahibəni apardı: S.Mürvətqızı //525-ci qəzet.- 2013.- 12,13,18,19,20.- aprel.- S.6.

**105.Hacalıyev, E.** Avropa Parlamenti ölkəmizdəki tolerantlıq mühitini yüksək qiymətləndirir /Elnur Hacalıyev //Azərbaycan.-2013.- 4 dekabr.- S.4.

**106.Hacızadə, A.** Azərbaycan tolerantlıq baxımından bir sıra ölkələr üçün uğurlu nümunədir /Asya Hacızadə //Azərbaycan.- 2013.- 20 avqust.- S.7.

**107.Hacızadə, A.** Misir jurnalı: «Bakı tolerantlıq və günəş şəhəridir» /Asya Hacızadə //Azərbaycan.- 2013.- 15 yanvar.- S.7.

**108.Herbert Kvelle:** Tolerantlıq Azərbaycanda ideya deyil, həqiqətdir //Azərbaycan.-2013.- 23 yanvar.- S.3.

**109.Hüseynov, H.** Tolerantlıq təlimi: Qərb-Şərq anlamında /Həsən Hüseynov //Respublika.-2013.- 4 iyul.- S.5.

**110.Hüseynov, S.** Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirli /Sakit Hüseynov; elmi red. A.Əlizadə.- Bakı: Təknur, 2012.-175, [1] s.: portr., cədv., 21 sm.

**111.İlyasov, R.** Ümummilli Lider Heydər Əliyev və Tolerantlıq-90 /R.İlyasov //Səs.-2013.- 4 aprel.- S.3.

**112.Kardinal Canfranko Ravazi Azərbaycanın tolerantlıq mühitini yüksək qiymətləndirmişdir** //Azərbaycan.- 2013.- 5 noyabr.- S.3.

**113.Qurbanov, Ə.** Azərbaycan dini tolerantlıq üzrə dünyaya nümunədir: Problemlər, mülahizələr və təkliflər / Əsədulla Qurbanov //Azad Azərbaycan.- 2013.- 17 iyul.- S.7.

**114.Mehdiyev, A.** Etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin həyat tərzidir /Allahverdi Mehdiyev //Azərbaycan.- 2013.- 27 iyul.- S.6.

**115.Musayeva, G.** Azərbaycan – dini və milli tolerantlıq məkanı /Günay Musayeva //525-ci qəzet.- 2013.- 23 yanvar.- S.6.

**116.Mürvətqızı, S.** "Azərbaycandakı tolerantlıq mühiti dini dözümlülüyə əsaslanan uğurlu siyasətin nəticəsidir" /Sevinc Mürvətqızı //525-ci qəzet.- 2013.- 26 iyul.- S.4.

**117.Mürvətqızı, S**. Azərbaycandakı tolerantlıq mənzərəsi dünya mətbuatında /Sevunc Mürvətqızı //525-ci qəzet.- 2013.- 2 iyul.- S.4.

**118.Nəzakət.** Azərbaycan dünyada tolerantlıq nümunəsidir: Cənubi Qafqazda ən böyük rus icması Azərbaycandadır /Nəzakət //Səs.- 2013.- 31 yanvar.- S.8.

**119.Nyu Yorkun «Times Square» meydanında** «Azərbaycan - tolerantlıq məkanı» mövzusunda //Azərbaycan.- 2013.- 10 oktyabr.- S.15.

**120.Sevinc, S.** Bu gün Ümumdünya Tolerantlıq Günüdür: Ekspertlər Azərbaycanda özünəməxsus tolerantlıq nümunəsinin olduğunu bildirirlər /Sevinc Sevinc //Həftə içi.- 2013.- 16-18 noyabr.- S.6.

**121.Səmədov, E.** "Tarixin hər bir mərhələsində Azərbaycanda bütün xalqların hüquqları bərabər olub": /Elsevər Səmədov; müsahibəni apardı: S.Mürvətqızı //525-ci qəzet.- 2013.- 11,12,13,18,19,20 sentyabr.- S.6.

**122.Sultanlı, Ə.** Tolerantlıq ünsiyyət körpüsüdür /Ənvər Sultanlı //BakuPost.- 2013.- 16 noyabr. - S.15.

**123.Surxay, H.** Azərbaycanda dini tolerantlıq mövcuddur: /Hacı Surxay; müsahibəni apardı: İ.Məmmədova //Səs .-2013.- 22 may.- S.11.

**124.Şükürov, C.** Vətəndaş cəmiyyətində tolerantlıq /Ceyhun Şükürov //Xalq cəbhəsi.- 2013.- 23 yanvar.- S.10.

**125.Tolerantlıq Azərbaycanda həyat tərzidir** //Səs .- 2013.- 15 noyabr.- S.10.

**126.Zaman, E.** Azərbaycan müxtəlif dini konfessiyaların tolerantlıq şəraitində yaşadığı məkandır / Elçin Zaman //İki sahil.- 2013.- 7 mart.- S.21.

**2014**

**127."Azərbaycan - tolerantlıq məkanı"** //Mədəniyyət.- 2014.- 4 aprel.- S. 3.

**128."Azərbaycan - tolerantlıq məkanı":** İsraildə fotosərgi açılıb //Mədəniyyət.- 2014.- 11 iyul.- S. 6.

**129.**"**Azərbaycan tolerantlıq məkanıdır":** Növbəti sərgi İsrailin Afula şəhərində açılıb //Mədəniyyət .-2014.- 15 avqust.- S. 10.

**130.“Azərbaycanda hər bir vətəndaşın dini etiqad azadlığı var:** Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində dini icma nümayəndələri ilə görüş //Mədəniyyət.- 2014.- 13 avqust.- S.4.

**131.Abbasov, Z.** Tolerantlıq-Azərbaycan cəmiyyətinin yaşam tərzidir /Zahiddin Abbasov //Respublika.- 2014.- 14 may.- S.3.

**132.Aslanova, R.** Azərbaycanda tolerantlıq ənənəsinin fəlsəfi-tarixi, mədəni əsasları / Rəbiyyət Aslanova //Azərbaycan.- 2014.- 21 noyabr.- S.6.

**133.Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir**: Milli azlıqları ictimai həyatın bütün sahələrinə inteqrasiya edib //Üç nöqtə.- 2014.- 18 aprel.- S.9.

**134.Azərbaycandakı tolerantlıq mühiti Londonda müzakirə olunub** //Mədəniyyət.- 2014.- 7 mart.- S. 3.

**135.Bağırov, R.** Azərbaycan tolerantlıq və multikulturalizm baxımından dünya mərkəzlərindən birinə çevrilib /Rəşad Bağırov //İki sahil.-2014.- 15 iyul.- S.6.

**136.Beynəlxalq Tolerantlıq Günü** //Xalq qəzeti.- 2014.- 15 noyabr.- S.4.

**137.Bədəlov,Ə.** Mədəni müxtəliflik, etnik və dini tolerantlıq: Azərbaycanın ən böyük nailiyyətlərindən biridir /Əliqismət //Xalq qəzeti.-2014.- 20 noyabr.- S.1.

**138.Böyük Britaniyanın nümayəndə heyəti** Azərbaycandakı tolerantlıq və multikulturalizm haqqında məlumatlandırılıb //Azərbaycan.-2014.- 19 sentyabr.- S.5.

**139.Cəliloğlu, V.** Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi /Vaqif Cəliloğlu //Bakı xəbər.- 2014.- 28-30 noyabr.- S.12.

**140.“Euronews” ölkəmizdəki molokanlar haqqında reportaj yayımlayıb** //Mədəniyyət.- 2014.- 18 aprel.- S.5.

**141.Əliqızı, Ş.** Azərbaycanın tolerantlıq təcrübəsi dünyada təbliğ olunur /Şəmsiyyə Əliqızı //İki sahil.- 2014.- 28 iyun.- S.21.

**142.Əliyev, E**. Tolerantlıq - başqasının düşünmək haqqını qəbul etməkdir /Elvin Əliyev //Zaman .-2015.- 16 yanvar.- S.13.

**143.Əliyeva, M**. UNESCO-da Azərbaycanın dini tolerantlıq modelinə həsr olunmuş beynəlxalq konfrans /Mehparə Əliyeva //Respublika.- 2014.- 18 noyabr.- S.10.

**144.Əliyeva, Y.** Azərbaycanın tolerantlıq təcrübəsi nümunədir: Ölkəmizin sürətli inkişafı, dini və milli tolerantlıq mühiti bəzi daxili və xarici qüvvələrin maraqlarına cavab vermir /Yeganə Əliyeva //İki sahil.- 2014.- 13 mart.- S.3.

**145.Gəncəliyeva, N.** Tolerantlıq insanlar arasında qarşılıqlı hörmətdir:16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür /Nərmin Gəncəliyeva //Mədəniyyət.- 2014.- 14 noyabr.- S.15.

**146.Leyla Əliyeva Rusiya ilə əməkdaşlıq, ekologiya və tolerantlıq haqqında** /L.Əliyeva; F.Abdullayeva. RAGT-nin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti //Azərbaycan.- 2014.- 24 aprel.- S.6//Respublika .-2014.- 24 aprel.- S.5.//Yeni Azərbaycan .-2014.- 24 aprel.- S.3.

**147.Mədəniyyətlərarası dialoqa xüsusi önəm verən Azərbaycan dünyada zəngin tolerantlıq ənənələri ilə tanınır** //Azərbaycan .-2014.- 7 mart.- S.3.

**148.Məmmədov, E.** Tolerantlıq həyat meyarıdır /Emin Məmmədov //Respublika.- 2014.- 13 avqust.- S.4.

**149.Məmmədova, K.** Uşaqların davranışı və tolerantlıq mədəniyyəti /Kifayət.Məmmədova,. //Azərbaycan məktəbi.- 2014.- № 5.- S 63-66.

**150.Mustafa, Ə.** Azərbaycan milli və dini tolerantlıq nümunəsi olan ölkədir /Əziz Mustafa //Zaman.-2015.-20 yanvar.- S.13.

**151.Nağıyev, A.** Azərbaycan tolerantlıq və multikulturalizm məkanına çevrilib /Anar Nağıyev //Azərbaycan.- 2014.- 6 fevral.- S.10.

**152.Niftəliyev, E.** Berlində "Azərbaycanda çoxsaylı dinlərin birgə yaşayışı: tolerantlıq və ictimai inkişaf" mövzusunda

tədbirlər keçirilmişdir /E.Niftəliyev //Azərbaycan.- 2008.- 7 iyun.- S.10.

**153.Novruzova, L.** Azərbaycanın sosial tolerantlıq siyasəti /Lalə Novruzova //525-ci qəzet.-2014.- 4 iyun.- S.5.

**154.Paşazadə, C.** Azərbaycandakı tolerantlıq dünyaya nümunədir: Cavanşir Paşazadə: "Ölkəmizdə heç bir dini və etnik qarşıdurmalar yoxdur" /Cavanşir Paşazadə //Həftə içi.- 2011.- 22 fevral.- S.3.

**155.Şaxtaxtinski,A.** Azərbaycanın dini tolerantlıq təcrübəsi dünyaya yayılmalıdır //Azərbaycan.- 2014.- 20 sentyabr.- S.8.

**156.Tolerantlıq Azərbaycan cəmiyyətinin yaşam normasıdır** //Azərbaycan 2014.- 6 sentyabr.- S.4.

**157.Tolerantlıq və multikulturalizm məsələlərinə həsr olunmuş "dəyirmi masa" səmimi dialoq şəraitində keçmişdir** //Azərbaycan .-2014.- 23 may.- S.5.

**158.Tural.** Leyla Əliyeva: "Tolerantlıq xalqımız üçün həyat tərzidir" /Tural //Palitra.- 2014.- 5 aprel.- S.5.

**159.Vəfalı, T**. Azərbaycan dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilib /Təbriz Vəfalı //Həftə içi.-2014.- 9 iyul.- S.7.

**160.Vəliyev, İ.** Fəxr edirəm ki, mən azərbaycanlıyam: Tolerantlıq prinsipləri bəyannaməsi kontekstində: 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür /İsaxan Vəliyev //Xalq qəzeti.- 2014.- 16 noyabr.- S.4.

**161.Zaqatalada «Tolerantlıq Azərbaycan cəmiyyətinin yaşam normasıdır» mövzusunda konfrans keçirilmişdir** //Azərbaycan .-2014.- 22 fevral.- S.12.

**162.Zaman, E.** Azərbaycan dünyaya dini tolerantlıq nümunəsi göstərir: Ölkəmiz müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu bir məkandır /E.Zaman //İki sahil.- 2011.- 1 iyul.- S. 10.

**163.Zülfüqaroğlu, Ə.** Azərbaycan sülh, tolerantlıq və işğal olunmuş torpaqlar arasında: /Əli Zülfüqaroğlu //Xalq cəbhəsi.- 2014.- 8 iyul.- S.10.

## 2015

**164.Əliyev, E.** Azərbaycanın tolerantlıq nümunəsi /Elvin Əliyev //Zaman.- 2015.- 5 fevral.- S.13.

**165.Cəfəroğlu, Ə.** Ədalət, dini və tolerantlıq anlayışı /Əli Cəfəroğlu //Zaman.- 2015.- 7, 10 fevral.- S.13.

e-**qanun**.az
www.anl.az
www.clb.az
www.president.az
www.scfwca.gov.az
www.**ombudsman**.gov.az
www.azertag.com
www.d-a-k.org
www.heydar-aliyev-foundation.org
www.muallim.edu.az
www.mct.gov.az
www.preslib.az
www.science.gov.az
www.strategiya.az

**Tolerantlıq**
**Respublika uşaq kitabxanaları üçün tövsiyə biblioqrafiyası**

**Kompyuter yığımı**
**və dizayn:** ***Tünzalə Əzizova***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:2
Çapa imzalanmışdır:07.04.2015
Tirajı:100
Pulsuz